

Faiq Hüseynbəyli

## SÖZ ADAMLARI

Şeytana, İblisə məəttələm mən,
Əyri yola çəkir düz adamları.
Minib cin atını belədən-belə
Meydanda oynadır öz adamları.

Min budaqlı eylə biri, bol eylə,
Göyü bərəkətli, yeri bol eylə.
İlahi, günəşi, nuru bol eylə,
Ərit bu ürəyi buz adamları.

İçimdə limansız bir gəmi azıb,
Gecənin dərini gündüzə yozub.
İlahi, alnına fəlakət yazıb,
Bir yerə yığırsan yüz adamları.

Bəxtikəm bir xanım dinimə gəlib,
Səsimə səs verib, ünümə gəlib.
Möhtəşəm ayrılıq günümə gəlib,
Oğlan adamları, qız adamları.

Sözdəyəm, səsdəyəm, sağda-soldayam,
Allahın dilindən qopan "ol"dayam.
Haqqın dərgahına gedən yoldayam,
Məşhərə aparır iz adamları.

Haqq sözü ağızdan çıxaracaqmı,
Haqqını haqsızdan çıxaracaqmı?
Çörəyi kağızdan çıxaracaqmı,
Qələm adamları, söz adamları?

## ZAMANI TUTMAQ OLMUR

Qələm-kağız götür, yaz,
Yaz ki, unutmaq olmur.
Bu sevgini-sevdanı
Könüldən atmaq olmur.

İçimi sökən qızı,
Dərdimi çəkən qızı,
Göz yaşı tökən qızı
Vallah, ovutmaq olmur.

Xəyalına gətir, yaz,
Bu məktubu bitir, yaz.
Qələm-kağız götür, yaz,
Zamanı tutmaq olmur.

Söz üstə verdim canı,
Ömür hanı, gün hanı?
Səndən sonra dünyanı,
Daha yaratmaq olmur.

Qələm-kağız götür yaz,
Yaz ki, unutmaq olmur.

## DÜNYA BİR TƏRƏFDƏ, SƏN BİR TƏRƏFDƏ

Dedik, ömrümüzə günəş nur saçar,
Bağlı qapıları hansı sirr açar?
Qalmışam ortada qərarsız, naçar,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

Çözdüm ilmə-ilmə əski adları,
Sıxdım gözlərimdə etirazları.
Mən necə yaşayım bu təzadları,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

İlahi, dərdimi tən yaratmısan,
Nə gözəl mehriban, şən yaratmısan.
Üçüncü dünyamı sən yaratmısan,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

Yollardan hansını seçim, bilmirəm,
Bəlkə bu dünyadan köçüm? Bilmirəm...
Mən hansı körpüdən keçim, bilmirəm,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

Gecənin dərdini verdim gündüzə,
Sığmadı həsrətim şeirə, sözə.
Səni dünya ilə qoydum üz-üzə,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

Torpaq, məni apar, su, məni apar,
Qadın göz yaşıyla yu məni, apar.
İlahi, ya sən gəl, ya məni apar,
Dünya bir tərəfdə, sən bir tərəfdə.

## ÖZÜNÜ QORU

Sözlə çəkdim şəklini,
Söz dodağın, söz gözün...
Bir gözünü seçərəm
Arasından yüz gözün.

Hər gün çıxır qarşına,
Adımı sən qarşıla.
Düyün vurma qaşına,
Turşumasın üz-gözün.

Danış çəməndən mənə,
Güldən-süsəndən mənə.
Çəkirmi səndən mənə
Yol gecə-gündüz gözün?

Qəlbini közdən qoru,
Bir quru sözdən qoru.
Özünü "özdən" qoru -
Dəyər sənə öz gözün.

## GÖRMƏDİM

Yolları sərdim yoxuşa,
Dumanı-çəni görmədim.
Payızdan endim bu qışa,
Qırovu, dəni görmədim.

Damla-damla, xana-xana,
Gəlib çatdım bu ünvana.
Aldandım cinə-şeytana,
İmanı-dini görmədim.

Yüz ölçüb-biçdim ömürdən,
Su kimi içdim ömürdən.
Kor kimi keçdim ömürdən,
Vaxtında səni görmədim.

## GÖRÜŞDÜK, AYRILDIQ...

Dağ dağa rast gəldi, insan insana,
Sən mənim rastıma niyə çıxmadın?
Sənli duyğulara, sənli hisslərə,
Sənli həsrətimə yiyə çıxmadın.

Şəklini çəkmişəm - yaddaşımdadır,
Saçın ağarıbmı?
Dəyişmisənmi?
Hardasan?
Hardasan, ay üzü dönmüş?
Fikrə ayaq verən mənmi, ya sənmi?

Görüşdük, ayrıldıq - tanışlar kimi,
Biz qaçdıq zamandan, zaman yeridi.
Bizim yollarımız birləşən nöqtə,
Yeni sevgilərin iman yeridir?

Dağ dağa rast gəldi, insan insana,
Barı çıx qarşıma, bilim ki, varsan!
Bəlkə də xoşbəxtsən, xəbərim yoxdur,
Bəlkə mənim kimi biixtiyarsan!

Hardasan?
Hardasan, ay üzü dönmüş?

## GEDƏK UZAQLARA

Hicrana qəhqəhə çəkək,
Gülüb gedək uzaqlara.
Ömrü dədə malı kimi
Bölüb gedək uzaqlara.

Faş eləyək həqiqəti,
Sevgi adlı təriqəti.
Kim yazıbsa bu qisməti,
Silib gedək uzaqlara.

Ver Faiqə öz yükünü,
Bir eləsin yüz yükünü.
Yaxınların söz yükünü,
Bilib gedək uzaqlara.

Açılmaz sirr uzaqlıqdı,
Ən gözəl yer uzaqlıqdı.
Ölüm də bir uzaqlıqdı,
Ölüb gedək uzaqlara!

## ƏYİLİR ADAMLAR

Ağappaq gəlir dünyaya,
Qara əyilir adamlar.
Günəşə dirçəlir, fəqət,
Qara əyilir adamlar.

Sus, sadəcə sus, göynəsən,
Soruşmazlar kimsən, nəsən!
Allah, deyirlər göydəsən,
Hara əyilir adamlar?

Sözdür vücudu titrədən,
Sözdür, söz - bu ruh, bu bədən.
Yoxdan var olubsa, nədən
Vara əyilir adamlar?

Bir sevdadan kam aldıqca,
Ucal, ucal ucaldıqca.
Bel bükülür qocaldıqca,
Gora əyilir adamlar.

## KÖNLÜM

Günəş necə doğur, Ay necə batır? -
Gəl eylə günümə tamaşa, könlüm.
Bu qızıl qəfəsdə, bu dar macalda,
Yatmayır bəzəyə, qumaşa könlüm.

Fələyin çarxını çevir tərsinə,
Doğrusu budursa, bunun tərsi nə?
Tələsə-tələsə həyat dərsinə,
Gəlib yetişmişəm bu yaşa, könlüm.

Dünya ərköyündü, naz edir hələ,
Axır öz sirrini verəcək ələ...
Bir eşqə, sevgiyə kölesən, kölə,
Ey zadəgan könlüm, ey paşa könlüm.

Qarğışa tuş gəldim, alqış dedilər,
Yolçu yolda gərək, yığış, dedilər.
Yanlış rəng qatdılar, naxış dedilər,
Uydu hər rəngsaza, nəqqaşa könlüm.

Ömrü gödək olar o mələyin də,
Kədər xəlbirində, qəm ələyində.
Dərdi məst etmisən qu lələyində,
Çırpırsan özünü hər daşa, könlüm.

Yenə fikirlərim qarışdı, neynim?
Alnımın yazısı qırışdı, neynim?
Ağrıyla-acıyla barışdı, neynim? -
Girmədi qismətlə savaşa könlüm.

## AMMA...

Qış ötsə, qar ərisə,
Yaz olsa, nolacaq ki?
Alın yazım yenidən
Yazılsa, nolacaq ki?

Nə dəyişər həyatda?-
Hərf eyni, say eyni.
İl həmin il olacaq,
Gün həmin gün, ay eyni.

Yenə gec gələcəksən,
Göz yaşı, Yağış və Yol...
Heç nə dəyişməyəcək,
Mən mən olum, sən sən ol.

Yenə həmin taleyi
Bu Faiq yaşayacaq.
Başqa cür ola bilməz,
Amma, lakin və ancaq...

* * *

Yazan yazıb bu qisməti,
Yazı yazana min şükür!
Çox qədrini bilmək üçün
Azı yazana min şükür!

Göy üzündə tək qanadlı,
Mən piyada, fələk atlı.
Qismətimə bu inadlı
Qızı yazana min şükür!

Nədir halal, nədir haram,
Məhəbbətə, eşqə varam.
Əyri ilə yoxdu aram,
Düzü yazana min şükür!

Nə Allaham, nə də İnsan -
Çətini bu. Nədir asan?
Səsim ruhdu, səsimə can-
Sözü yazana min şükür!